**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 057/377**

**Bakı şəhəri**

"08" sentyabr **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2024-cü il 6 sentyabr tarixli rəsmi məlumatına əsasən, Norveç Krallığının Aqder (Agder) kantonunda blutanq xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəlikdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Norveç Krallığının Aqder kantonunda blutanq xəstəliyinin qeydə alınması barədə məlumatı nəzərə alınsın.

**2.** Norveç Krallığının Aqder kantonunda, zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatdan 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci bəndində adıçəkilən inzibati ərazi vahidinin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**4.** Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci bəndində qeyd olunan inzibati ərazi vahidindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**5.** Bu qərarın 2-ci bəndinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkənin qeyd olunan inzibati ərazi vahidindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**6.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**7.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

8. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi

Chief Veterinary Officer

# Vizalar

**Sənədin kodu:** QRN000003031 **Tarixi:** 19.08.2024

**Qeydiyyat Nömrəsi:** 100-/S/0070 09.09.2024

**İcraçı:** HÜSEYNOV MİRVÜQAR MİRSALEH

**İmzalayan:** ƏBDÜLƏLİYEV QALİB HÜMMƏT

**Alan:**

**Qeyd:**
AZƏRBAYCAN RESPUBLİKASİ ƏRAZİSİNİN BAŞQA ÖLKƏLƏRDƏN KEÇƏ BİLƏCƏK YOLUXUCU HEYVAN XƏSTƏLİKLƏRİNDƏN QORUNMASİ ILƏ BAĞLİ TƏDBİRLƏR HAQQİNDA (QƏRAR 057/377)

**Vizalar verənlərin siyahısı:**

| | | |
|---|---|---|
| MİKAYILOV ELXAN ƏVƏZ | 09.09.2024 | Təsdiq edilib |
| ƏBDÜLƏLİYEV QALİB HÜMMƏT | 09.09.2024 | Təsdiq edilib |